KREDO
№ 75-76 (1253-1254) 19 dekabr 2024-cü il

*Həssas duyğular*

# GƏNCLİYİN SEVGİ DOLU DUYĞULARI

## İSTƏRƏM

Qəlb sızıltısından da savayı başqa dərdim var,
Rahatlıq tapammıram, ağlamağa fəğan istərəm.

Dərdmi deyirəm, əzabmı deyirəm, bir biləydim kaş,
Olaydı könlüm fərah, İlahidən dərman istərəm.

Gözyaşlarım quruyub bir belə nalə içində fəqət,
Qəlbimdən axan sellər üçün dəryayi-ümman istərəm.

Mən ki dərdimi cümlə-cahana bildirməz idim,
Dağ boyda qəmimi öz canımdan pünhan istərəm.

Hərarətdən yanıban bu dünyada qalarkən,
Torpaq altda üşüyən can parçama yorğan istərəm.

Mən həmsöhbət olarmıydım yanıma gələr isən,
Cannətindən sənə yoldaş olan bir qılman istərəm.

Qocalıban quruyan ağaclar, min bir budaq olmayın,
Hər kəsə qol-qanad gələnimə tazə tər fidan istərəm.

Möcüzələrə daha inanmıram sehri ilə ovsunlaya
Röyalarda, xəyallarda görüşməyə güman istərəm.

Yağış olub, selə dönən gözyaşlarımızdan
Gözəlləşən göy çəmən, gülzari-məkan istərəm.

Çoxmu baxacaq bu həsrətli baxışlar yollara
Ey bağrına basan, qovuşmağa zaman istərəm.

Sadiq, məzarbaşında fəryad qoparırsan yenə,
Tanrıya dua edibən, səbrü-iman istərəm.

## AH, NƏ BİLƏYDİM...

*Babamın əziz xatirəsinə*

Çox böyük sızıltı keçdi canımdan,
Xəbərsiz olmuşam donan qanımdan.
Yaşıla bürünüb ağa dönmüsən,
Hərəkətsiz necə ötdün yanımdan?

Bəlkə də hardasa alırsan nəfəs,
Eşitmirəm səni, duymuram bir səs.
Bəlkə də canlanar həyat bugün də
Yaşamağa ümid, olsaydı həvəs.

Darıxıram yaman, göynəyir qəlbim,
Danışa bilmirəm, titrəyir səsim.
Gözlərim dolduqca, axır sel kimi
Bəzən silməyə də gəlməyir əlim.

Apardılar səni, qalmadı çarəm,
Uymusan səssizcə, ey ciyər-parəm.
Səs-sədan gəlməyir, harda qalıbsan?
Könlümün köksündə mən ahu-zarəm.

Həsrətlə baxıram uzun yollara,
Sataşır gözlərim tozlu kollara.
Səni axtarıram, ehtiyacım var
Mənədək əlini açan qollara.

Xatirə dolanır fikrimdən keçir,
Gözlərim yalnızca tək səni seçir.
Cənnət bağındasan, edirəm xəyal
Gəzdiyin torpaqda güllər su içir.

Qəmlənməyə məni bir an qoymadın,
Bağrına basarkən öpüb doymadın.
İndi ağlayıram, necə dözürsən?
Niyə gözyaşımı silən olmadın?

Son dəfə əlini sıxa bilmədim,
Saçlarına sığal çəkə bilmədim.
Kövrək bir nəzərlə baxdın sən mənə,
Sənin gözyaşına qıya bilmədim.

Ah, nə biləydim ki, bu son görüşdür,
Dolanbac yollardır, gəlməz dönüşdür.
Titrəyən əlinlə bağrına basdın
Kaş biləydim mən də bu son öpüşdür.

Axrıncı baxışı çıxmaz yadımdan,
Duyurdu dərdimi lal fəryadımdan.
Ay quşlar, darıxdım, salam aparın
Çatdırın babama, mənim adımdan.

05.12.24



**Qəndab SADİQ**